# Azərbaycanın Milli qəhrəmanı, general-mayor Polad Həşimovun anım günü

Rayon mədəniyyət mərkəzində Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimovun anım gününə həsr olunmuş tədbir (15 iyul) keçirilmişdir. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların əməkdaşları, şəhid ailələri, qazilər, Polad Həşimovun döyüş yoldaşları, ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak etmişdir. Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan, bu gün isə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən, ən müasir səviyyədə həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi dünya hərb tarixində misli görünməmiş qələbə qazanaraq Azərbaycan əsgərinin tarix yazdığını vurğulamış, 2020-ci ilin iyul hadisələrinin bu qələbənin qazanılmasında böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır. Tədbirdə çıxış edənlər milli qəhrəmanın həyatından, döyüş yolundan və 44 günlük Vətən müharibəsində şanlı ordumuzun qələbəsindən bəhs etmiş, Qəbələ Mədəniyyət Mərkəzinin aktyorlarının və məktəblilərin ifasında Polad Həşimova həsr olunmuş mahnılar və şeirlər səsləndirmişdir. Sonda Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova çıxış edərək general haqqında öz xatirələrini danışmış, tədbirin hazirlanmasında zəhməti olan hər kəsə təşəkkür etmiş və şəhid ailələrinin, müharibə əlillərinin dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğuna görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir. Sonda Azərbaycan Respublikasının Milli Qəhrəmanı, general-mayor Polad Həşimovun həyat və fəaliyyəti haqqında video-çarx nümayiş etdirilmişdir.



# Polis işçilərinin peşə bayramı

Azərbaycan polisinin yaranmasının 105-ci ildönümü və Azərbaycan Polisi Günü münasibətilə Qəbələ rayonunda tədbir keçirilib. Öncə polis əməkdaşları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, üzərinə tər güllər düzərək Ümummilli Liderə dərin ehtiramlarını bildirmişlər. Rayon polis şöbəsində davam edən tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayon hüquq mühafizə orqanlarının rəhbərləri, veteran polislər iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Fəxrəddin Abbasov Azərbaycan polisinin yaranmasının ildönümü və Azərbaycan Polisi Günü münasibətilə şəxsi heyəti təbrik etmiş, Azərbaycan polisinin keçdiyi tarixi yol haqqında məlumat vermiş, Azərbaycan polisinə ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində böyük diqqət və qayğının göstərildiyi, hazırda da polis əməkdaşlarının əməyinin ölkə rəhbərliyi tərfindən layiqincə qiymətləndirildiyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Ümummilli lider Heydər Əliyev tərəfindən daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı önəmli qərarlar qəbul edildiyini vurğulamış, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli islahatlar çərçivəsində daxili işlər orqanlarının da müasirləşdiyini bildirmiş, asayiş keşikçilərini Azərbaycan polisinin yaranmasının 105-ci ildönümü və 2 iyul Azərbaycan Polisi günü münasibətilə təbrik etmişdir. Çıxış edən polis veteranı Nadir Vəliyev veteran polisləri və polis işçilərini əlamətdar gün münasibətilə təbrik etmiş, respublikada sabitliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə asayiş keşikçilərinin müstəsna xidmətləri olduğunu vurğulamış, veteran polislərə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir. Sonda xidmətində fərqlənən bir qrup polis əməkdaşına, veteran polislərə fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunmuşdur.



# Dövlət şəhərsalma nəzarəti çərçivəsində özbaşına aparılan tikinti işlərinin qarşısının alınması

Qəbələ Rayon İcra Hakimiyyətində “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də və “Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları”nda dəyişiklik edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 10 aprel tarixli 2095 nömrəli Fərmanının icrası ilə əlaqədar iclas keçirilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin, inzibati ərazi dairələri üzrə nümayəndələrin və bələdiyyə sədrlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev şəhərsalma və tikinti fəaliyyəti sahəsində rayonda görülmüş işlər, eləcə də bu sahədə baş verən qanun pozuntularının vaxtında aşkar edilməsi, nöqsanların tez bir zamanda aradan qaldırılması, dövlət şəhərsalma nəzarətinin daha da gücləndirilməsi, qanunsuz tikinti işlərinin qarşısının alınması ilə əlaqədar görüləcək işlər barədə məlumat vermişdir. İclasda həmçinin qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin sadələşdirilmiş qaydada istismarına icazə verilməsi ilə əlaqədar mövcud vəziyyət və qarşıda duran vəzifələr müzakirə olunmuşdur.





# Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün

“Heydər Əliyev İli” çərçivəsində Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün” mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbir iştirakçıları öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə ehtiramlarını bildirmişlər. Rayon icra hakimiyyətinin, YAP Qəbələ Rayon Təşkilatının, Qəbələ Regional “Asan xidmət” mərkəzinin, rayon təhsil sektorunun, ağsaqqallar şurasının, eləcə də digər idarə, müəssisə və təşkilat nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycanın Dövlət Himni səslənmiş, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova tədbir iştirakçılarını salamlayaraq 1969-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün bütün sahələrdə geniş islahatlar proqramı həyata keçirildiyini vurğulamış, bu ənənənin ümummilli liderin rəhbərliyi illərində, eləcə də bu gün onun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini qeyd etmişdir. Çıxış edənlər 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycanın inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir respublikaya çevrildiyini, Azərbaycanın bu günkü inkişafının Heydər Əliyevin adı və onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlı olduğunu bildirmişlər. Sonda Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunmuşdur.



# Narkomaniya ilə mübarizə hər bir şəxsin fərdi məsuliyyətidir

Rayonumuzda Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, “Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun təşkilatçılığı ilə “Narkomaniya ilə mübarizə hər bir şəxsin fərdi məsuliyyətidir” mövzusunda tədbir keçirilib. Qəbələ Arxeoloji Mərkəzində baş tutan tədbirdə Qəbələ, Oğuz, Şəki, Qax, Balakən və Zaqatala rayonlarını təmsil edən fəal gənclər iştirak ediblər. Əvvəlcə tədbir iştirakçılarına qədim Qəbələ şəhərinin tarixi haqqında ətraflı məlumat verilib. Tədbiri giriş sözü ilə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov açaraq narkomaniya ilə mübarizənin sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrindən biri olduğunu vurğulamış, sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişdir. YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bu sahədə maarifləndirmə işlərinin vacibliyini vurğuluyaraq əsas məqsədin yeniyetmə və gənclərin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaqdan ibarət olduğunu bildirmişdir. Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Qəbələ Komissiyasının sədri Arif Allahverdiyev çıxış edərək narkomanlığın müasir dövrdə bütün bəşəriyyəti narahat edən ən ciddi sosial bəlalardan biri olduğunu bildirib. Həmçinin qeyd edib ki, narkomanlığa və narkotiklərə qarşı qətiyyətlə və effektiv mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb və mövzu ətrafında fikir mübadiləsi aparılıb. Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təbliği məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanılıb.